**1. Qeyd edilənlərdən hansı 44 günlük müharibə gedişində xronoloji olaraq son azad olunmuş rayon mərkəzidir:**

A) Qubadlı
B) Ağdam
C) Kəlbəcər
D) Füzuli
E) Zəngilan

**2. 2022-ci il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən elan edilmişdir:**

A) “Qarabağa qayıdış” ili
B) “N. Gəncəvi” ili
C) “Qarabağ” ili
D) “İ. Nəsimi” ili
E) “Şuşa” ili

3. **Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə informasiya müharibəsində müdafiədən “hücum diplomatiyası”na keçilməsi vəzifəsi irəli sürülmüşdür:**

A) 2004- cü ildən
B) 2010-cu ildən
C) 2016-cı ildən
D) 2018-ci ildən
E) 2020-ci ildən

**4. Qeyd edilən dövlətlərdən neçəsində XX əsrin ilk onilliyində inqilablar *baş verməmişdir:***

1. Tsin imperiyası
2. Rusiya imperiyası
3. Qacarlar dövləti
4. Osmanlı imperiyası
5. Almaniya imperiyası

A) 1
B) 2
C) 3
D) 4
E) 5

**5. Qeyd edilənlərdən neçəsi XIX əsr Almaniya və İtaliya tarixinə aid olan ümumi cəhətlərdir:**
a. Avstriya ilə müharibə aparmışdılar
b. “Üclər ittifaqına” daxil olmuşdular
c. Rusiya ilə yaxınlaşmışdılar
d.Vahid dövlətdə birləşmişdilər
e. İmperiya yaranmışdı

A) 1
B) 2
C) 3
D) 4
E) 5

**6. 1775-ci ildə rus qoşunu Dərbəndi tərk etdi:**
A) Fətəli xanın geri qayıtmasına görə
B) Əmir Həmzənin məğlub olmasına görə
C) Osmanlı dövlətinin etirazına görə
D) İsveçlə yeni müharibə təhlükəsinə görə
E) Rusiyada hakimiyyət dəyişikliyinə görə

**7. Xronoloji ardıcıllığı müəyyən edin:**
1. Urmiyada ermənilər tərəfindən soyqırım törədilməsi
2. İctimai Təşkilatların İcraiyyə Komitəsinin yaradılması
3. Krım Xalq Respublikasının yaradılması
4. I Dünya müharibəsi dövründə ABŞ-ın Almaniyaya müharibə elan etməsi
5 Kaporetta döyüşünün baş verməsi

A) 1,3,2,5,4
B) 4,1,3,2,5
C) 5,4,2,3,1
D) 2,4,5,1,3
E) 3,2,1,4,5

**8. Qaraqoyunlu dövlətinin XV əsrin 30-cu illər tarixi üçün xarakterikdir:**

A) III İvanla diplomatik münasibətlərin qurulması
B) Şirvanşahlar və Cəlairilərlə müharibə aparılması
C) Qara Yusif tərəfindən Azərbaycanı birləşdirmə siyasətinin aparılması
D) Ağqoyunlu dövləti ilə dostluq münasibətlərinin saxlanılması
E) Teymurilər dövlətindən asılı vəziyyətdə olması

**9. AXC-də qəbul edilmiş Müəssislər Məclisinə seçkilər haqqında əsasnamə:**

1. 20 yaşına çatmış bütün vətəndaşlara seçkidə iştirak hüququ verirdi
2. Parlament seçkiləri ərəfəsində qüvvəyə mindi
3. Ölkənin Sovet Rusiyası tərəfindən işğalı nəticəsində həyata keçirilmədi
4. Milli Şuranın səlahiyyətlərini müvəqqəti olaraq bərpa etdi

A) 1,2
B) 2,3
C) 3,4
D) 1,3
E) 2,4

**10. Uyğunluğu müəyyən edin**:

1. 1840-cı il 10 aprel qanunu
2. 1843-cü il çar fərmanı
3. 1846-cı il 6 dekabr reskripti

a. Cənubi Qafqazın məhkəmə sistemində mühüm dəyişikliklər etdi
b. Bəylərə kəndlilər üzərində inzibati, polis və məhdud məhkəmə hüququ verildi
c. Mülki işlərə hərbi məhkəmələrdə baxılması qaydası ləğv edildi
d. Azərbaycan ağa və bəyləri "ali müsəlman silki" adlanmağa başlandı
e. Kəndli qrupları ləğv edilərək ümumi adla "mülkədar tabelisi" adlandırıldı

A) 1-d,e; 2-a,b; 3-c
B) 1-c; 2-b; 3-d,e
C) 1-b,e; 2-c; 3-d
D) 1-b; 2-d; 3-a,c
E) 1-a,c; 2-d; 3-b,e

**11. Həsən padşah və Yaqub Mirzə üçün oxşar cəhət:**

A) Osmanlıya qarşı Avropa dövlətləri ilə ittifaq qurulması
B) Səfəvi şeyxləri ilə mübarizə aparılması
C) Qaraqoyunlu dövləti qoşunlarının məğlubiyyətə uğradılması
D) Şirvanşahlarla dostluq münasibətlərinin saxlanılması
E) Qanunnamə qəbul edilməsi

**12. Göstərilənlərin aid olduğu dövləti müəyyən edin**:

a. Birinci Dünya müharibəsindən qalib dövlət kimi çıxdı
b. Rusiya, Osmanlı və Avstriya-Macarıstanda baş verən inqilablar xaricdə kapital qoyuluşunu xeyli azaltdı
c. Elzas və Lotaringiyanın geri alınması iqtisadiyyatının inkişafına təkan verdi




A)1 B) 2 C) 3 D) 4 E) 5

**13. Azərbaycanın 910-cu və 1668-ci il tarixləri üçün oxşar cəhət:**
A) Ərazilərində oğuz tayfalarının məskunlaşması
B) Ərazisində yeni dövlətlərin meydana gəlməsi
C) Mərkəzi hakimiyyətə qarşı xalq çıxışlarının baş verməsi
D) Marağanın paytaxt şəhər elan olunması
E) Xəzərsahili torpaqlarının yadelli hücumuna məruz qalması

**14. XXI əsrin ilk onilliyində baş *verməmişdir:***

A) Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin işə salınması
B) “ASAN xidmət” mərkəzlərinin açılması
C) Dünya azərbaycanlılarının ikinci qurultayının keçirilməsi
D) “Ombudsman haqqında” konstitusiya qanununun qəbul edilməsi
E) Respublikamızda bütün çadır şəhərciklərinin ləğv edilməsi

**15.Uyğunluq *pozulmuşdur*:**

A) XIII əsrdə yaşamış məşhur musiqişünasdır – Əbdürrəşid Bakuvi
B) Cahanşahın əmri ilə inşa edilmişdir – Təbrizdə Göy məscid
C) “Cavidannamə” əsərinin müəllifidir – Fəzlullah Nəimi
D) Naxçıvan memarlığı üslubunda inşa edilmişdir – Urmiyada Üç günbəz türbələri
E) Monqol yürüşləri və Əmir Teymur dövrünə aid əsərlər yazmışdır – Nizaməddin Şami

**16. Qədim Albaniya dövləti Əhəməni dövlətindən fərqli olaraq:**

A) Roma qoşunlarının hücumuna məruz qalmışdı
B) Makedoniya qoşunları tərəfindən süquta uğradılmışdı
C) Zərdüştiliyi rəsmi din elan etmişdi
D) Selevkilər tərəfindən asılı hala salınmışdı
E) Quldar monarxiya dövləti idi

**17. Düzgün mülahizəni müəyyən edin:**

A) SSRİ-nin 1936-cı il konstitusiyasına görə Azərbaycan əhalisi türk adlandırılırdı
B) Hərbi kommunizm siyasəti dövründə Azərbaycanda neft sənayesi və elektrikləşməyə daha çox diqqət ayrılırdı
C) 1921-ci il Moskva müqaviləsi ilə Naxçıvan vilayəti Azərbaycanın himayəsinə verildi
D) Heydər Əliyev Azərbaycan SSR-in ilk yerli rəhbəri idi
E) Meydan hərəkatı nəticəsində DQMV-nə "xüsusi idarəçilik" verildi

**18. Xronoloji ardıcıllığı müəyyən edin**:

1. Babilər hərəkatının yatırılması
2. Türkmənçay müqaviləsinə əsasən, ermənilərin Azərbaycana köçürülməsi
3. "Tənbəki üsyanı"nın baş verməsi
4. Məşrutə inqilabının başlanması

A) 2,1,3,4
B) 1,2,4,3
C) 3,1,4,2
D) 4,2,1,3
E) 2,3,4,1

**19. Dərbənd şəhərinin XV əsrə qədər olan tarixinə aiddir:**

A) Şirvanşahlar dövlətinin paytaxtına çevrilməsi
B) Azərbaycanın ən iri liman şəhəri olması
C) Yaqut əl-Həməviyə görə, Azərbaycanın ən çox tanınmış şəhəri olması
D) Ərəb və Səlcuq canişinliyinin mərkəzi olması
E) Səfəvi-Osmanlı müharibələri nəticəsində iqtisadi əhəmiyyətini itirməsi

**20. Alman qoşunlarının Marna yaxınlığında geri oturdulması nəticəsində:**

1. Avropada müharibə başa çatdı
2. Almaniya qərb və şərq cəbhələrində müharibə aparmaq məcburiyyətində qaldı
3. ABŞ və Böyük Britaniya Yaponiyaya müharibə elan etdi
4. "İldırımsürətli müharibə" planı boşa çıxdı

A) 1,2
B) 2,3
C) 3,4
D) 1,3
E) 2,4

**21. Göstərilənlər aiddir:**

1. Aşşur hakimiyyətindən çıxaraq özünü müstəqil elan etdi
2. Hakimiyyəti dövrü ilə Yeni Şahlıq dövrü başlayır
3. Babili İkiçayarasında hakim dövlətə çevirdi

A) I Tutmosa
B) I Daraya
C) Nabupalasara
D) Hammurapiyə
E) Sumuabuma

**22. Məntiqi ardıcıllığı tamamlayın:**
1. SSRİ və Almaniya arasında "Dostluq və sərhədlər haqqında" müqavilə imzalanması
2. Polşa ərazisinin iki dövlət arasında bölüşdürülməsi
3. ....................................................................
A) Krım konfransının çağırılması
B) ABŞ-ın ikinci dünya müharibəsinə qoşulması
C) "Majino müdafiə xəttinin" yarılması
D) Avropada müharibənin başa çatması
E) SSRİ-nin Millətlər Cəmiyyətindən çıxarılması

**23. IV İvanın hakimiyyəti dövründə keçirilən islahatlar nəticəsində:**

A) Rusiyada qadınların hakimiyyətə gəlməsinə son qoyuldu
B) Rusiya imperiyaya çevrildi
C) Avropa dövlətləri ilə Rusiya arasındakı gerilik ortadan qalxdı
D) Rusiyada silki monarxiya quruluşunda mərkəzləşdirilmiş dövlət yarandı
E) Zemstvo məclisinin səlahiyyətləri genişləndi

**24. XVIII əsrin sonlarında İngiltərdə kəndlilərin vəziyyətinə aiddir:**

1. Bir sosial təbəqə kimi sıradan çıxmışdılar
2. Kəndli müharibələrinin məğlub olması nəticəsində azadlıqlarını tamamilə itirmişdilər
3. Məskunlaşmaq üçün müstəmləkə ərazilərinə axın edirdilər
4. Feodal qaydaların ləğvi ilə geniş torpaqlara yiyilənmişdilər
5. Öz torpaqlarından tamamilə məhrum olmuşdular

A) 1, 3, 5
B) 2, 4, 5
C) 1, 2, 3
D) 3, 4, 5
E) 1, 2, 4

**25. 1716-cı ildə Osmanlı-Avstriya müharibəsinin başlanmasına səbəb oldu:**
A) Avstriyanın Belqrad sülhünün şərtləri ilə razı olmaması
B) Avstriya təbəələrinin Osmanlı ərazisində kilsə tikmək istəməsi
C) Macarların osmanlılardan kömək istəməsi
D) Osmanlı dövlətinin Venesiya üzərində qazandığı qələbə
E) Osmanlı dövlətinin şərqdə Səfəvilərlə müharibə aparması